# Təlimçilər haqqında məlumat



**Vüqar Namazov, PMP**

*BFB-nin İdarə Heyəti sədrinin müavini*

2005-ci ildə UNEC-in Maliyyə və kredit fakultəsini bakalavr, 2007-ci ildə Beynəlxalq İqtisadi Münasibətlər fakultəsini magistr dərəcəsi ilə bitirmişdir. 2006-cı ildən BFB-də əmək fəaliyyətinə başlamış və departament direktoru vəzifəsinə qədər yüksəlmişdir. 2013-cü ildən BFB-nin İdarə Heyətinin sədr müavini vəzifəsində çalışır. Eyni zamanda, UNEC-in doktorantıdır.

2014-cü ildə Layihələrin İdarə Edilməsi İnstitutundan (PMI) Peşəkar Layihə Meneceri (PMP) sertifikatını əldə etmişdir.



**Abdulla İsayev**

*BFB-nin Biznesin İnkişafı qrupunun rəhbəri*

2004 – 2007-ci illərdə Xəzər Universitetinin Beynəlxalq iqtisadi Münasibətlər fakultəsində təhsil alıb, 2007 – 2008 ci illərdə Kaliforniya Dövlət Universitetində (Los Angeles) təhsilini Maliyyə və İnvestisiyalar fakultəsində tələbə mübadiləsi proqramı çərçivəsində davam etdirərək Xəzər Universitetində bakalavr dərəcəsinə yiyələnmişdir.

2008 ci ildən 2013-cü ilə qədər PWC şirkətinin Azərbaycan ofisində maliyyə sektoru əminlik xidmətlərində mütəxəssis vəzifəsi ilə başlayaraq baş mütəxəssis vəzifəsinə qədər yüksəlmişdir. 2013-2014-cü illərdə SQ Mart şirkətinin Azərbaycan nümayəndəliyində Biznesin İnkişafı Departamentinin Direktoru və Maliyyə Direktoru vəzifəsində çalışmışdır. 2014-cü ilin fevral ayından Bakı Fond Birjasında "Biznesin İnkişafı Qrupunun direktoru" vəzifəsində çalışır. ACCA üzvüdür.



**Rəxşəndə Əlili**

*BFB-nin Ticarət və Üzvlük qrupunun rəhbəri*

Xəzər Universitetində Maliyyə Sahəsi üzrə bakalavr təhsili almış və universiteti fərqlənmə dipomu ilə bitirmişdir. Beynəlxalq Dərəcədə Tanınmış CFA (Sertifikatlaşdırılmış Maliyyə Analitiki) kvalifikasiyasının birinci mərhələsini uğurla keçmiş və CFA-ll namizədidir.

Müxtəlif dövlərdə Azərbaycan Respublikasının Mərkəzi Bankında və Azərbaycan Respublikasının Dövlət Neft Fondunun İnvestisiya departamentində maliyyə sahəsi üzrə peşəkar təcrübə əldə etmişdir.

Peşəkar fəaliyyətinə Bakı Fond Birjasının Ticarət və Üzvlük qrupunun aparıcı mütəxəssisi olaraq başlamış və qrup rəhbəri səviyyəsinə qədər yüksəlmişdir. Hal-hazırda Bakı Fond Birjasının Ticarət və Üzvlük Qrupunun rəhbəri vəzifəsində çalışır.



**Əli Orucov**

*BFB-nin Biznesin İnkişafı qrupunun aparıcı mütəxəssisi*

2016-ci ildə ADİU-nin Beynəlxalq İqtisadiyyat məktəbinin maliyyə ixtisası üzrə təhsil almışdır. Bakı Fond Birjasının təşkil etdiyi "Gənc İnvestor 2015" biznes keys müsabiqəsinin qalibi olmuşdur. 2016-cı ilin may ayından etibarən Bakı Fond Birjasının Biznesin İnkişafı Qrupunda əmək fəaliyyətinə başlamışdır. Hazırda həmin qrupda aparıcı mütəxəssis vəzifəsində çalışır.